**Hacıqabul rayon İcra Hakimiyyəti Başçısının 07 mart 2016-cı il tarixli 30 nömrəli Sərəncamına qismən dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 03 fevral 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuraları haqqında nümunəvi Əsasnamə"yə uyğun olaraq Hacıqabul rayon İcra Hakimiyyəti Başçısının 07 mart 2016-cı il tarixli 30 nömrəli Sərəncamı ilə Hacıqabul rayon İcra Hakimiyyətində Apellyasiya Şurasının tərkibi təsdiq olunmuşdur.

Keçən dövr ərzində Hacıqabul rayon İcra Hakimiyyəti orqanının Apellyasiya Şurasının üzvlərindən bəziləri başqa işə keçmələri ilə əlaqədar tutduqları vəzifədən azad olunmuşlar. Bununla da Hacıqabul rayon İcra Hakimiyyətinin Apellyasiya Şurasının tərkibinin yenidən təşkil olunması zərurəti yaranmışdır.

Yuxarıda göstərilənləri nəzərə alaraq

**QƏRARA ALIRAM:**

1. Hacıqabul rayon İcra Hakimiyyəti Başçısının 07 mart 2016-cı il tarixli 30 nömrəli Sərəncamına qismən dəyişiklik edilərək, Hacıqabul rayon İcra Hakimiyyətində Apellyasiya Şurasının tərkibi aşağıdakı kimi təsdiq olunsun.

**APELYASİYA ŞURASININ SƏDRİ:**

- Fikrət Qasımov – İcra Hakimiyyəti Başçısının müavini, Sosial-İqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri

**APELYASİYA ŞURASININ ÜZVLƏRİ:**

- Tariyel İsgəndərov – İcra Hakimiyyəti Başçısı aparatının Hüquq şöbəsinin müdiri
- İbad Həşimov – İcra Hakimiyyəti Başçısı aparatının Ərazi İdarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri
- Salman Zamanov – İcra Hakimiyyəti Başçısı aparatının Memarlıq və Tikinti Şöbəsinin müdir əvəzi

- Akif Əliyev – İcra Hakimiyyəti Başçısı aparatının Sosial-İqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi müdirinin müavini əvəzi
- Əsabir Məmmədov – İcra Hakimiyyəti Başçısı aparatının İctimai siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi
- Laləzar İbrahimova – İcra Hakimiyyəti Başçısının Hacıqabul şəhər İƏD üzrə nümayəndəsi

2. Apellyasiya Şurasına tapşırılsın ki, Sərəncamın surətini Azərbaycan Respublikası Prezidenti yanında Apellyasiya Şurasına çatdırılmasını təmin etsin və öz işini "Yerli İcra Hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında nümunəvi Əsasnamə"nin tələblərinə uyğun qurmaqla fəaliyyətini təmin edərək, bu barədə İcra Hakimiyyəti Başçısına məlumat versin.

**Əhməd Muxtarov,**
**Hacıqabul rayon İcra Hakimiyyətinin başçısı**

Hacıqabul rayonu, 19 yanvar 2017-ci il
№ 8